**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XIX ƏSRİN I YARISINDA MİSİRİN MƏDƏNİ-İCTİMAİ HƏYATININ MODERNLƏŞMƏSİNDƏ MÜSƏLMAN MÜTƏFƏKKİRİ RAFİ RİFAA ƏT-TƏHTAVİNİN ROLU

İxtisas: 5502.01 – Ümumi tarix

Elmi sahəsi: Tarix

İddiaçı: **Pərvinə Ağasəf qızı Əfəndi**

fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi AMEA akademik Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Ərəb ölkələri tarixi və iqtisadiyyatı" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: tarix üzrə fəlsəfə doktoru, dosent
**Fərda Məhərrəm oğlu Əsədov**

Rəsmi opponentlər: tarix elmləri doktoru, dosent
**Aidə Rəhim qızı Bağırova**

tarix elmləri doktoru
**Yaroslav Valentinoviç Pilipçuk**

tarix üzrə fəlsəfə doktoru
**Namiq Eldar oğlu Məmmədov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası.

Dissertasiya Şurasının sədri: ______________ tarix elmləri doktoru, professor
**Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya Şurasının elmi katibi: ______________ tarix elmləri doktoru, dosent
**İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: ______________ tarix elmləri doktoru, professor
**Habil Nurkişi oğlu Məmmədov**

# I.DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müsəlman cəmiyyətinin, xüsusilə də təhsil sisteminin modernləşməsi problemi XVIII-XIX əsrdən etibarən müsəlman ölkələrinin mədəni elitasını narahat etməyə başlayır. Məhz həmin dövrdə islam dünyasının ən böyük dövləti olan Osmanlı imperiyasının Qərbi Avropadan iqtisadiyyatda, hərbi sahədə, səhiyyədə, təhsildə və digər sahələrdə geriliyi bariz şəkildə görsənməyə başladı ki, bu da onun mövcudluğunu və sonrakı inkişafını təhlükə altına alırdı. İslam dünyasının mədəni həyatında həmişə böyük rol oynayan, lakin XIX yüzilliyin əvvəllərində inkişafdan geri qalan ərəb dünyasının ən çox əhaliyə malik ölkəsi Misirdə bu problem daha yüksək vüsət almışdı.

Rafi Rifaa ət-Təhtavi (1801-1873)[1], Nasif əl-Yazıcı (1800-1871), Əhməd Faris əş-Şidyaq (1805-1887), Məhəmməd Abdo (1849-1905), Əbdürrəhman əl-Kəvakibi (1854-1902), Xeyrəddin ət-Tunisi (1810-1899), Butrus əl-Bustani (1819-1883), İbrahim Yazıçı (1848-1906), eləcə də bir müddət Misirdə yaşamış Camaləddin əl-Əfqani (1838-1897)[2] kimi alimlər İslam prinsiplərini nəzərə alaraq modernləşməni fəal şəkildə təbliğ etmişlər.

Qərblə İslam dünyası arasında elm, təhsil və sosial-iqtisadi inkişaf səviyyələrindəki fərqin kifayət qədər böyük olması səbəbindən modernləşmə və İslam cəmiyyəti üçün faydalı olan Avropa biliklərinin mənimsənilməsi prosesi hələ də başa çatmayaraq bu günə qədər davam etməkdədir. Bu baxımdan XIX əsrdə Misirdə islahatların həyata keçirilməsini nümunə götürərək modernləşmənin müsəlman cəmiyyətində və ilk növbədə təhsil sahəsində hansı şəraitdə başladığını və necə baş verdiyini nəzərdən keçirmək məqsədəuyğundur. Bu proses ilk ölkələrdən biri kimi müsəlman dünyasında, Türkiyə sultanının canişini olan Məhəmməd Əli Paşanın rəhbərliyi altında sosial-iqtisadi sahənin modernləşməsi ilə başladı.

---

[1] صالح مجدى. حلية الزمن بمناقب خادم الوطن رفاعة بك رافع الطهطاوى. القاهرة. ١٩٥٨

[2] جرجي زيدان. تراجم مشاهير الشرق في القرن التاسع عشر - الجزء الثاني، القاهرة. ٢٠١٢

Modernləşmə prosesləri hərbi-texniki sahə, sənaye, tibb, təhsil kimi həyatın çoxsaylı sahələrini əhatə etmişdir.

Tarixdə, xüsusən də modernləşmə kimi dönüş əhəmiyyətli tarixi proseslərin gedişində həmin islahatlarların ideya müəllifi və rəhbərinin, habelə bir şəxsiyyət kimi rolu böyükolduğundan araşdırmada ölkə təhsilinin modernləşməsində mühüm rol oynamış misirli mütəfəkkir və maarifçi Rafi Rifaa əl-Təhtaviyə xüsusi yer ayrılır.

Misir mədəni həyatında və təhsil islahatlarının həyata keçirilməsində, Misirin təhsil islahatlarının gedişatında tarixi şərait və görkəmli Misir mütəfəkkiri ət-Təhtavinin şəxsiyyətinin təşəkkül tapmasında cəmiyyətdə baş verən siyasi vəziyyət böyük əhəmiyyət kəsb etmiş, onun Qərb dünyası ilə tanışlıq təcrübəsi - Fransaya səfər təəssüratı və onun formalaşmış qətiyyəti Misirin inkişafı naminə mədəniyyət siyasətinin həyata keçirilməsi və Fransada təhsil sisteminin təşkil edilməsi sahəsində əldə etdiyi nailiyyətlərdən və təcrübədən bu işdə istifadə etməyi başa düşməkdir.

Misirdə təhsil və sosial-iqtisadi modernləşmə mövzusu həmin proseslərin ölkənin mədəni həyatına təsir edən alimlərin geniş dairəsinin marağına səbəb olmuşdur. Araşdırmada ərəb, türk, rus, fransız, britaniyalı, amerikalı, almaniyalı, çinli, iranlı və yaponiyalı müəlliflərin əsərləri nəzərdən keçirilmişdir.

Ət-Təhtavinin ilkin yaradıcılıq dövrü barədə əsas mənbə onun "Təxlis əl-ibriz fi-t-təlxis-bariz bi divan baris" [3] (Parisin qısa xülasəsində təmiz qızılın ayırd edilməsi və yaxud Paris barədə nəfis məlumat) adlı yazdığı kitabdır. Belə ki, o, bu əsərdə1826-31-ci illərdə Parisdə olduğu zaman Fransanın ictimai, iqtisadi və siyasi həyatının müxtəlif aspektlərini nəzərdən keçirir. Kitabda Fransa həyatının rəngarəng cəhətləri İslam dəyərlərinə zidd olmamaq şərti ilə Misir üçün mümkün faydalar baxımından diqqətlə təhlil edilir.

[3] رفاعة بدوي رافع الطهطاوي. كتاب تخليص الابريز الي تلخيص باريز أو الديوان النفيس بايوان باريس. مصر. ١٩٠٤

Beş cildlik tam akademik küliyyat [4] üzərində uzun illər işləmiş müəllif Məhəmməd İmar Misir maarifçisi ət-Təhtavinin irsinin tədqiqində öz mühüm töhfəsini vermişdir. Bu əsər ət-Təhtavinin fəaliyyəti ilə bağlı mövzular, faktlar, hadisələr, proseslər haqqında məlum olan və yeni tapılmış bütün mətnlərin tam toplusundan ibarətdir.

Dissertasiyada habelə ət-Təhtavinin tərcümeyi-halına həsr olunmuş Camaləddin əş-Şiyəlin "Məhəmməd Əli paşanın dövründə intelektual dirçəlişin dühası Rafi Rifaa ət-Təhtavi" [5] , Əhməd Bədəvinin "Rafi Rifaa ət-Təhtavi bəy, ərəb maarifçiliyinin seçilmişi"[6] əsərləri və digər materiallardan istifadə edilmişdir.

Hazırkı araşdırmada ət-Təhtavinin istər Misirdə, istərsə də digər ölkələrdə (Amerikada, İngiltərədə və Fransada) yaşayan birbaşa nəslininin davamçılarından (2021-ci ilin məlumatlarına əsasən) istinadlar gətirilir. Hazırda onlar həm sosial-iqtisadi, həm də dini istiqamətdə mədəni-maarif fəaliyyəti ənənələrini davam etdirirlər. Belə ki, Əli, Aliyə və Ayişə Rafi ət-Təhtavi Qahirədə Misir dini və mədəni tədqiqatları üzrə cəmiyyətə rəhbərlik edir. Cəmiyyət kitab və jurnallar nəşr edir, elmi konfranslar təşkil edir, ehkamçılığa və dini normalara formal əməl olunmasına qarşı mübarizə aparır, dini fikrin azad inkişafı, digər dinlərə tolerantlıq və müxtəlif dinlərin nümayəndələrinin əməkdaşlığı uğrunda fəaliyyət göstərir. Hal-hazırda Parisdə yaşayan, ət-Təhtavinin nəticəsi olan Məcidə ət-Təhtavi əcdadının reallaşdırdığı modernləşmə layihəsi, bu layihədə Qərb və İslam dəyərlərinin , həmçinin onun Misirin ən böyük mənəvi mərkəzi olan əl-Əzhərlə münasibətlərinin tarixi barədə ətraflı məlumat vermişdir. [7]

---

[4] محمد عمارة , الأعمال الكاملة لرفاعة رافع الطهطاوي, الطبعة الأولى - دار الشروق – القاهرة, ٢٠١٠, الجزء ١،٢،٣،٤'٥

[5] جمال الدين الشيال, رفاعة الطهطاوي: زعيم النهضة الفكرية فى عصر محمد على, دار احياء الكتب العربية, القاهرة, ١٩٤٥

[6] أحمد أحمد بدوى, رفاعة الطهطاوى بك, نخبة بيان العربى, القاهرة, ١٩٥٠

[7] Əl-İsavi T. Rifaa ət-Təhtavinin nəvəsi ərəbləri yeni İntibah dövrünə başlamağa çağırır (hafidə Rifaa ət-Təhtavi tadyu əl-ərəb ət-tədşin muntalak nahdavi cədid)

Ət-Təhtavi fəaliyyətini nəzərdən keçirən yerli alimlər arasında E. H. Araslı qeyd olunmalıdır. Onun "Cürci Zeydan və ərəb tarixi romanı"[8] əsərində, xüsusilə də ət-Təhtavinin ərəb dünyasında maarifçilik ideyalarının yayılmasına verdiyi töhfələrə toxunur. A. N.İmanquliyevanın "Yeni ərəb ədəbiyyatının korifeyləri"[9] əsərində Misir, Suriya və Livanın digər görkəmli xadimləri ilə yanaşı, ərəb xalqının maariflәndirilməsində ət-Təhtavinin böyük rolu vurğulanır.

Həmçinin, müsəlman dünyasının, İslam modernləşməsinin inkişaf perspektivlərinə həsr olunmuş yerli müəlliflərin digər tədqiqatları (monoqrafiyaları və məqalələri), o cümlədən islam ictimai fikri çərçıvəsində müasir islamdaxili proseslərin müxtəlif ideoloji mövqelərdən öyrənilməsi baxımından S. Həsənovanın "XIX-XXI əsrlər islam fəlsəfəsi və modernləşmə" [10] , R.A.Mürsəlovun "İslamdaxili müasir proseslər (Misir mütəfəkkirlərinin mövqeyindən)" [11] tədqiqatlarını qeyd etmək lazımdır. Müasir türk tədqiqatçıları Misirdə modernləşmə dövrünün öyrənilməsinə böyük töhfə vermişlər. Bu iş üzrə mühüm mənbə Misirin təhsil siyasətinin tarixi, Osmanlı dövründə Misirin və Qərbin (ilk növbədə Fransanın) təhsil siyasətinin müqayisəli təhlilinə, Məhəmmədəli paşa və ət-Təhtavinin tərcümeyi-hallarına həsr olunmuş əsərləri qeyd etmək lazımdır. Bu siyahı H.Ceylan "Osmanlı dövründə (XIX əsr) Misirin hüquqi modernləşdirilməsi" [12] , E.Mustafa" Məhəmmədəli paşanın dövründə Misirdə təhsilin

---

[Elektron resurs] // Ərəbi-21. 26.08.2020. Giriş rejimi: https://arabi21.com/story/1295933/ (müraciət tarixi – 01.11.2020).

8 Araслы Э. Г. Джирджи Зейдан и арабский исторический роман. М.: Наука, 1967

9 Имангулиева А. Н. Корифеи новоарабской литературы. Баку: Эльм, 1991

10 Həsənova S. XIX – XXI əsrlər İslam fəlsəfəsi və modernizm / Samirə Həsənova // AMEA-nın Xəbərləri tarix, fəlsəfə və hüquq seriyası. – 2012. - № 1

11 Mürsəlov R.A., Müasir İslamdaxili proseslər: Misir mütəfəkkirlərinin düşüncələrinin təhlili əsasında / Ramiz Mürsəlov; elmi red.: akad.G.B.Baxşəliyeva, E.Y.Həsənova; AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnst-tu. - Bakı: Bakı Çap Evi, 2010

12 Ceylan Ayhan, Osmanlı Döneminde Mısır’da Hukuk Modernleşme (XIX Yüzyıl). Türk Hukuk Tarihi Araştırmaları, Sayı 5, 2008 (Bahar)

qərbləşdirilməsi" [13], M.Cihangir "Rifaa Rafi ət-Təhtavi"nin Paris müşahidələri "ndə və" Hayrulla əfəndi"[14] və s. əsərlərində öz əksini tapmışdır. E. İhsanoğlunun "Misirdə türklər və onların mədəni irsi"[15] adlı əsəri xüsusi qeyd olunmalıdır. Bu iş müəllifin qırxillik ardıcıl əməyinin nəticəsidir. Burada Osmanlı-türk mədəniyyətinin Misirdə necə inkişaf etdiyini və bərqərar olduğu göstərir. Akademik A.Şişmanın "Əsrin əvvəllərində Fransada ilk Osmanlı tələbələri"[16], həmçinin "Tənzimat dövründə Fransaya göndərilən qeyri-müsəlman Osmanlı tələbələri"[17] əsərləri bu araşdırmanın giriş xarakteri daşıyan və bu mövzu üzrə ilk elmi araşdırmaları təşkil edən yanaşma və proseslərin təhlili üçün çox vacib mənbələrdir.

Bizi maraqlandıran dövrün kulturoloji və tarixi araşdırmaları ilə məşğul olan rusiyalı alimlər arasında modernləşmənin Misir ədəbiyyatına təsirini nəzərdən keçirən "Misirin yeni və müasir ədəbiyyatı (XIX – XX əsrlər)"[18] əsərinin müəllifi V.N. Kirpiçenkonu göstərmək olar. X.Ponçayevanın Misirdə təhsilin müasirləşdirilməsi prosesinə həsr olunmuş "XIX – XX əsrin əvvəllərində Misirdə təhsil sisteminin inkişafı"[19] əsərində əsas diqqət Məhəmm Əli paşanın bu sahədə islahatlarının təhlilinə yönəlmişdir. Məsələn, ölkədə dünyəvi orta məktəblər və peşə məktəbləri sisteminin yaradılması prosesi izah

---

[13] Ergün, Mustafa. Mehmet Ali Paşa zamanında Mısır'da Eğitimin Batılaşması. Ahi Evran Üniversitesi, Kırşehir Eğitim Fakültesi Dergisi, c. XVI, sayı 3, aralık – 2015

[14] Cihangir, Mehmet. Rifa'a Rafi el-Tehtavi'nin Paris Gözlemleri ve Hayrullah Efendi'nin Avrupa Seyahatnamesi adlı eserlerine yansıyan Batı ve Batılı imgesi. Karşılaştırmalı Edebiyat Anabilim Dalı yüksek lisans tezi. - Eskişehir: 2015

[15] Ekmeleddin, İhsanoğlu. Mısır'da Türkler ve Kültürel MiraslarıMehmed Ali Paşa Günümüze Basılı Türk Kültürü Bibliografyası ve Bir Değerlendirme, İslam Tarih, Sanat ve Kültür Araştırma Merkezi, - İstanbul, - 2005

[16] Şişman, Adnan. 19. Yüzyıl Başlarında Fransa'daki İlk Osmanlı Öğrencileri. Osmanlı 5, Yeni Türkiye Yayınları.– Ankara: - 1999

[17] Şişman, Adnan. Tanzimat Döneminde Fransa'ya Gönderilen Gayr-i Müslim Osmanlı Öğrencileri, c.X. Türk Tarih Kongresi.– Ankara:- 1994

[18] Кирпиченко В.Н. Новая и современная литература Египта (XIX – XX вв.). М.: Институт Востоковедения РАН, 2003

[19] Пончаева Х. Дж. Развитие системы образования в Египте в XIX – начале XX в. Диссертация… кандидата исторических наук. СПб., 2004

olunur və bunun üçün Avropadan mütəxəssislər dəvət olunması göstərilir. J.Petruninin mülahizəsinə görə, təhsilin inkişafında müəyyən uğurlara baxmayaraq, ibtidai və orta təhsildən əhalinin bəhrələnməsindən ötrü yaradılan məktəblərin azsaylı olması üzündən çox aşağı səviyyədə qalmışdır.

Böyük Britaniyada problemin araşdırılmasından danışarkən V.Livinqstonun "Şeyx Rifaa ət-Təhtavi fikrində Qərb elmi və təhsil islahatı"[20] məqaləsini qeyd etmək lazımdır. Burada müəllif ənənəvi ilahiyyatçıların, xüsusilə də ət-Təhtavinin Misirdəki təhsil islahatında görkəmli rolunu və XIX əsrin əvvəllərində Avropa təhsil elitasının mövcud olmadığını vurğulayır.

Tədqiqatda müasir araşdırmaçıların ət-Təhtavi yaradıcılığına, Misirdə təhsilin inkişafı tarixi məsələsinə və müasir dövrdə bu ölkənin modernləşdirilməsinə maraq göstərən Çin şərqşünaslarının nəşrlərindən, Qərb fikrinin müasir Misir cəmiyyətinə təsiri, müasir Misir feminist düşüncəsini araşdıran, eləcə də, yapon maarifçisi Fukudzava Yukitinin yaradıcılıq fəaliyyəti təhlil olunur, onun fəaliyyətində aşkarlanan bir çox paralel və analoqlar Misirdəki ictimai islahat proseslərilə müqayisə olunur, bu da ənənəvi Şərq cəmiyyətlərinin Qərb mədəniyyəti və sosial quruculuğunun nailiyyətləri ilə qarşılıqlı əlaqəsinin geniş kontekstində modernləşdirilməsi təcrübəsini nəzərdən keçirməyə imkan verir. Çin şərqşünasları Tsay Veylyan[21], Tszyan Şuyyun[22] və Yuan İfenin[23]

---

[20] Livingston, J. W. Western Science and Educational Reform in the Thought of Sheykh Rifaa al-Tahtawi // International Journal of Middle East Studies, Vol. 28, № 4. 1996

[21] 蔡伟良. (2011). 埃及近代启蒙思想家塔哈塔维思想溯源. 阿拉伯世界研究, 000(003), Tsay Veylən (2011). Maarifçilik dövrünün müasir misirli mütəfəkkiri ət-Təhtavi fikrinin mənşəyinin tədqiqi. Ərəb dünyası tədqiqatları. (Shanghai İnternational Studies University).

[22] 里法阿·塔哈塔维教育思想及其启蒙精神[D].上海外国语大学,2020./ 江淑君. 院系：东方语学院,学科专业：阿拉伯语语言文学,姓名：江淑君 ,指导教师：周放副教授/ Tsyan Şuyün, Rifaa ət-Təhtavinin maarifçilik düşüncəsi. Şöbə: Şərqşünaslıq İnstitutu. Tədris istiqaməti: Ərəb dili və ədəbiyyatı / (WRC - yekun ixtisas işi) elmi rəhbər: dosent Çjou Fanq. (Shanghai İnternational Studies University).

əsərlərində qərb maarifçilərinin ət-Təhtaviyə təsirindən, nəticədə onlardan individualizm və utilitarizmi əxz edib mənimsəməsindən bəhs olunur.

**Tədqiqatın obyekti və predmeti.** Araşdırmanın obyekti XIX əsrin I yarısında Misirin sosial-iqtisadi və təhsil sisteminin modernləşməsi, araşdırmanın predmeti isə görkəmli Misir maarifçisi Rafi Rifaa ət – Təhtavinin bu prosesdə rolu olmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi XIX əsrin birinci yarısında Misirin sosial-iqtisadi və təhsil sisteminin modernləşdirilməsinin əsas xüsusiyyətlərini, həmçinin bu prosesin ləngiməsinə və ya sürətlənməsinə səbəb olan amilləri, ət-Təhtavinin yaradıcılığına xüsusi diqqətlə təhlil etməkdən ibarətdir. Bunun üçün aşağıdakı məsələlər öz həllini tapmışdır:

- Baxışların formalaşdığı və ət-Təhtavinin fəaliyyət göstərdiyi XIX əsrin I yarısında Misirdə sosial-siyasi vəziyyəti nəzərdən keçirmək və xarakterizə etmək;
- Misirli maarifçi alim ət-Təhtavinin həyat və yaradıcılığının əsas mərhələlərini izah etmək;
-ət-Təhtavinin həyat və fəaliyyəti dövründə Misir cəmiyyətinin siyasi və sosial-iqtisadi modernləşmənin xüsusiyyətlərini təhlil etmək.

**Tədqiqat metodları.** Tədqiqatda Fransız işğalı və Məhəmməd Əli paşanın islahatçı fəaliyyəti ilə bağlı ölkədə baş verən dəyişikliklər arasında səbəb-nəticə əlaqəsini müəyyən etmək üçün tarixçilik prinsipi tətbiq edilmişdir. Nəzərdə tutulan dövrdə Misirin modernləşməsində müxtəlif amillərin rolunu təhlil etmək və qiymətləndirmək üçün xronoloji ardıcıllıq metodu əsas götürülmüşdür. Şərq cəmiyyətlərinin mədəni elitasının Qərb sivilizasiyası ilə qarşılıqlı təsiri kontekstində Misirdə modernləşmənin gedişatının qiymətləndirilməsi və ideyaların nəzərdən keçirilməsi məqsədilə islahatların təcrübəsi ilə onların

[23] 袁义芬. (1987). 里发阿塔哈塔维. 阿拉伯世界 (4). YUAN YIFEN/ Yuan İfen. (1987). Rifaa ət-Təhtavi. Ərəb dünyası (4).

ideya rəhbərlərinin Şərqin müxtəlif ölkələrinə baxışları arasında müqayisə-qarşılaşdırma metodundan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1.Napoleonun Misirə yürüşü və Misirdə üç il fransız hökmranlığı üç ili ölkənin mədəni və siyasi elitasının özünüdərk prosesidə iki mühüm nəticəyə gətirib çıxarmışdır. Birincisi, misirlilər müsəlman cəmiyyətlərinin Fransadan hərbi-texniki cəhətdən geridə qalmasına öz təcrübələrində şahid oldular. İkincisi, müstəmləkə hakimiyyətinin Misirdə ictimai həyatı və iqtisadi və siyasi münasibətləri modernləşmə cəhdləri heç də böyük uğur qazanmasa da, şübhəsiz ki, sosial-iqtisadi islahatlar, cəmiyyətdə və dövlətdə yenidənqurmanın qaçılmaz istiqamətlərinin yeni bir yol olduğunu göstərmişdir.

2.Fransa administrasiyası tərəfindən irəli sürülmüş müstəmləkə xarakterli dəyişikliklər, eyni zamanda, islahatların həyata keçirilməsində misirlilərin ənənəvi dəyərlərə bağlılığını ortaya çıxardı. Həmin islahatlara ölkə fransız müstəmləkəsindən azad olandan sonra praktiki olaraq müstəqil hakim Məhəmməd Əli paşa tərəfindən həyata keçirilməyə başlanmışdır.

3. Məhəmməd Əlinin həyata keçirdiyi Misirin modernləşməsi prosesi hərbi-texniki cəhətdən çox uğurlu olmuşdur. Təhsil və sənayenin inkişafında da kifayət qədər uğurlar əldə olunmasa da, müəyyən irəliləyişlərə nail olunmuşdur. Lakin daimi müharibələr və modernləşmə üzrə uzunmüddətli planın olmaması üzündən sadə misirlilərin həyat səviyyəsinin yüksəlməsinə və onların təhsil səviyyəsinin ciddi şəkildə artmasına nail olmaq mümkün olmamış, bu da modernləşmə proseslərinin ləngiməsinə gətirib çıxarmışdır.

4.Ət-Təhtavinin şəxsiyyətinin və dünyagörüşünün formalaşması ilkin maarifçilik dövrünün Misir ziyalı elitasının bütün xüsusiyyətlərini özündə birləşdirirdi: təməl islam dini təhsili və təhsil aldığı gənclik illərində Qərb, Fransa mədəniyyəti ilə təmas və qarşılıqlı münasibətlər təcrübəsi, yeni Misir ordusunda müəllim kimi ilkin fəaliyyəti.

5.Ət-Təhtavinin islahatçı kimi fəaliyyəti əsasən iki mərhələdə baş vermişdir: Qərb cəmiyyətinin nailiyyətləri haqqında biliklərin

maarifləndiricisi və yayıcısı, Qərb məktəblərinin nümunəsi üzrə təhsil müəssisələrinin təşkilatçısı və rəhbəri olaraq praktiki fəaliyyəti.
6.Misir maarifçisinin fəaliyyəti ölkə üçün faydalı olan və eyni zamanda ənənəvi mədəniyyətə və islam dininə zidd olmayan Qərb nailiyyətlərinə uyğun olaraq Misir cəmiyyətinin modernləşməsinə yönəldilmişdir.
7.Misirdə aparılan islahatlar və ət-Təhtavinin innovativ dəyişikliklərinin zaman və məzmununa görə effekti Qərb cəmiyyətləri və dövlətləri ilə qarşılıqlı əlaqə və təmas fonunda baş verən Şərq cəmiyyətlərinin və xalqlarının özünüdərketmə prosesinin bir hissəsi kimi nəzərdən keçirilə bilər.
8.Osmanlı İmperiyasında və onun ayrı-ayrı hissələrində, xüsusilə Misirdə islahatların gedişində müstəmləkə dövrünün xüsusiyyətləri, eyni zamanda, yaranmaqda olan milli ərəb şüurunun şərtləri üst-üstə düşürdü. Bu səbəbdən bir çox ümumi məqsəd və vəzifələrlə yanaşı, Osmanlı cəmiyyətində və Misirdə modernləşmə prosesləri bir-birindən ayrı şəkildə baş vermişdir.
9.Müstəmləkəçilik dövründə ənənəvi icmaların Qərb nümunəsi ilə modernləşdirilməsi təcrübəsi öz xüsusiyyətlərinə malik idi və məhdudlaşırdı. O, xalqların antikolonial mübarizəsi ilə uzlaşıb və Avropa fövqəldövlətlərinin müstəmləkə mülkiyyəti uğrunda rəqabət şəraitində həyata keçmişdir.
10.Müsəlman cəmiyyətlərində islahatların yarımçıq olmasının səbəblərini anlamaq üçün Misir və Yaponiyada modernləşmə yollarını Qərb müstəmləkəçiliyi cəhdlərinə qarşı analoji mübarizə şəraitində, lakin müxtəlif nəticələr və nailiyyətlər şəraitində müqayisə etmək məqsədəuyğundur. Yapon və Misir modernləşməsinin əsas fiqurlarının, Rifaa ət-Təhtavi və Fukudzava Yukiti ideyalarının və maarifçilik fəaliyyətinin bütün xarici oxşarlığı ilə islahatların prioritetləri və proqramlarında iki fundamental fərqlər mövcuddur. Bu, dinə, ənənəvi dini qurumlara olan münasibət, hakimiyyətə və siyasi islahatlar məsələlərinə olan münasibətdir. Belə ki, yapon islahatçısı ölkədə siyasi sistemin dəyişməsini və ictimai münasibətlərin liberallaşdırılmasını müdafiə edərək, ideyaların

işlənib hazırlanmasında və islahatların həyata keçirilməsində daha ardıcıl olmuşdur.
11.Misirdə mədəniyyət və təhsil sahəsində ət-Təhtavinin fəaliyyətinə və islahatlarına ərəb intibahının birinci mərhələsi - Osmanlı imperiyasının ərəb əyalətlərində mədəni oyanış prosesi kimi baxmaq olar. Misirdə onun əsas məziyyəti ölkənin Osmanlı imperiyasından ayrılıb müstəqilliyinin möhkəmlənməsinə yönəlik hərbi-administrativ islahatlarla müşayiət olmuşdur. Misir modernləşdirilməsinin ilkin mərhələsinin bu xüsusiyyəti və İslam dininin islahatların ideya əsası kimi qəbul edilməsi Osmanlı imperiyasının Misir üzərində suverenliyinin Məhəmməd Əli tərəfindən məcburi şəkildə yenidən tanınmasından sonra ət-Təhtavi, Camal əd-Din əl-Əfqani və Məhəmməd Abdonun ardıcıllarının nəzərində Misirdəki ərəb intibahının ideya məzmununun İslam modernizmi və panislamizm ideyaları istiqamətində inkişafına gətirib çıxardı.
**Tədqiqatın elmi yeniliyi**. Tədqiqatın elmi yeniliyi, ilk növbədə, Misir və ümumi ərəb mədəni dirçəliş hərəkatının görkəmli xadimi Rafi Rifaa ət-Təhtavinin XIX əsrin I yarısında bütün Osmanlı imperiyasında modernləşməyə və maarifləndirməyə başlaması kontekstində, Misir hakimi Məhəmməd Əlinin ölkənin Osmanlı imperiyasından müstəqillik uğrunda mübarizəsi, eləcə də bütün dünyada Avropa dövlətlərinin müstəmləkə ekspansiyası şəraitində Şərq xalqlarının oyanışı kontekstində islahatçı fəaliyyətini nəzərdən keçirməkdən ibarətdir.

Ət-Təhtavinin həyat və yaradıcılığı araşdırılarkən, birbaşa şəcərə qohumlarının və ailə üzvlərinin şifahi məlumatlarına, həmçinin ailə arxivində qorunan tarixi sənədlərə əsasən ilk dəfə ət-Təhtavinin ailə üzvlərinin sxem şəklində şəcərəsinin mükəmməl forması hazırlanmışdır. Həmçinin elmimizə məlum olmayan və yaxud az məlum olan xeyli sayda mənbə və ədəbiyyatlardan da istifadə olunmuşdur. Ət-Təhtavinin həyat və yaradıcılığının təhlili zamanı tarix elmində az öyrənilmiş və ya tamamilə naməlum mənbələrdən və ədəbiyyatdan istifadə olunmuşdur.

Ət-Təhtavinin Qərb sivilizasiyasının xüsusiyyətlərinə münasibəti, həmçinin Misir cəmiyyətinin modernləşməsi prosesi ənənəvi mədəniyyətlə və İslam dini ilə birləşdirmək cəhdləri araşdırılmışdır. Milli tarixşünaslıqda ilk dəfə olaraq ət-Təhtavinin fəaliyyəti ilə XIX əsr Yapon maarifçisi Fukudzava Yukiti ilə müqayisə olunmuş, onların nəzəri baxışlarında və praktiki fəaliyyətində bir çox ümumi cəhətlər aşkar edilmiş və bu, Şərq cəmiyyətlərinin dünyada Avropa müstəmləkəçiliyinin başladığı şəraitdə modernləşdirilməsinin yolları ilə bağlı bir neçə mühüm nəticə çıxarmağa imkan vermişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Bu tədqiqatın nəticələri tarixdə və müasir dünyada Qərb mədəniyyəti və müsəlman dünyasının qarşılıqlı əlaqəsi məsələlərini daha dərindən araşdırmaq üçün istifadə edilə bilər. Tədqiqat materiallarından XIX əsrin Yaxın Şərq tarixinə həsr olunmuş tədris proqramlarının hazırlanmasında da istifadə etmək olar.

**Aprobasiya və tətbiq.** Dissertasiya işinin əsas müddəaları və nəticələri 8 elmi məqalə və 4 tezislərdə öz əksini tapmışdır. Bunlardan 6 məqalə və 4 tezis Azərbaycanın elmi jurnallarında çap olunmuşdur. Bir məqalə Əlcəzair Xalq Demokratik Respublikasında, digər iki məqalələr isə Qazaxstan Respublikası və Türkiyə Cumhuriyyətində dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının akademik Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutunun nəzdində "Ərəb ölkələrinin tarixi və iqtisadiyyatı" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın ümumi həcmi.** Dissertasiya girişdən, 3 fəsildən, nəticə və istifadə olunan ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın ümumi həcmi (istifadə olunmuş ədəbiyyat siyahısı, ixtisarların və cədvəllərin siyahısı istisna olmaqla) 43962 simvoldan ibarətdir. Bunlardan Giriş - 2787, I fəsil - 7005, II fəsil - 19595, III fəsil - 5206, Nəticə - 2958 simvol təşkil edir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın strukturu onun əsas məqsəd və vəzifələrinə tabe edilib və girişdən, əsas tədqiqat məsələlərinin həll edildiyi üç fəsildən və istifadə olunan mənbələr və ədəbiyyat siyahısı ilə tamamlanmış nəticədən ibarətdir.

**Girişdə** elmi problemin məzmunu göstərilmiş, onun aktuallığı müəyyən edilmiş, tədqiqatın nəzəri və metodoloji əsasları verilmiş, məqsəd və vəzifələri qoyulmuş, praktiki əhəmiyyəti əsaslandırılmış, elmi yeniliyi formalaşdırılmış, öyrənilmiş mənbə və ədəbiyyatın icmalı və xarakteristikası təqdim edilmişdir.

**"XIX əsrin birinci yarısında Misirdə sosial-siyasi vəziyyət"** adlı birinci fəsildə Fransız işğalı zamanı və Məhəmməd Əli Paşanın hakimiyyəti dövründə (1805-1848-ci illər), cərəyan edən sosial-iqtisadi, siyasi və mədəni dəyişikliklərin xüsusiyyətləri təhlil edilmişdir. Bu dövrdə Misir onun sürətli modernləşməsini təmin etməyə yönəlik həyatın bütün sahələrində bir çox müxtəlif islahatlara məruz qalmışdır. Bununla belə, həmin modernləşmə prosesləri müxtəlif sahələrdə eyni dərəcədə uğurlu olmamışdır.

**Birinci paraqrafda** Fransız işğalının Misirə təsirinin xüsusiyyətləri nəzərdən keçirilir. XVIII əsrin sonunda bir zamanlar güclü və şöhrətli Misir Osmanlı imperiyasının adi bir əyaləti idi. Onun əhalisinin çox olmasına və çox zəngin tarixinə baxmayaraq, o, bu dövrün dünya inkişafında ciddi rol oynamışdır. Misir təkcə Qərbdən deyil, bir sıra islam ölkələrindən də ciddi şəkildə geri qalırdı. 1798–ci ildə Misir Napoleon qoşunları tərəfindən ələ keçirildi və 1801-ci ilə qədər fransız qoşunları orada qaldı. Ölkənin işğal edilməsində məqsəd Hindistanın gələcək işğalı üçün keçidin yaradılması idi. Buna görə də fransızlar Misir iqtisadiyyatını öz işğal planlarına uyğunlaşdırmaqla ölkəni modernləşdirməyi qərara aldılar. Fransızlar kənddə mülkədrların müqavimətini sındırmağı, silah və geyim istehsal etmək üçün fabriklər açmağı, müasir təhsil və kitab çapı sistemini yaratmağı, ən perspektivli gənc misirliləri Fransaya təhsil almağa göndərməyi planlaşdırdılar. Bəzi islahatları həyata

keçirmək mümkün olsa da, üç il ərzində bütün bu dəyişikliklərin həyata keçirilməsi üçün çox az bir müddət olmuşdur.

Misirlilər özləri fransızları asanlıqla məğlub edəcəklərinə ümid edirdilər, lakin müasir müstəmləkəçilər ordusuna qarşı yalnız ibtidai müdafiə vasitələri (məsələn, dəmir zəncirləri Nil çayının eninə sallayıb baryer yaradılması ilə fransız gəmilərinin hərəkətinin qarşısı almaq cəhdi kimi) ilə mübarizə apara bilmişdilər. Qeyd etmək lazımdır ki, Fransadan Misirə yalnız qoşun deyil, ölkə əhalisinin maarifləndirilməsindən ötrü həm də elmin ən müxtəlif sahələrindən olan alim və mütəxəssislərin böyük bir qrupu göndərimişdi.

Lakin fransız işğalının mənfi tərəfləri də çox tez ortaya çıxdı. Sənətkarlar və tacirlər üçün vergi yükünün kəskin artması, kəndlilərin əmlakının müsadirə edilməsi, yemək və mal-qaranı işğalçılara verməkdən imtina etdiyi bölgələrdə günahsız misirlilərin edam edilməsi, onlara divan tutulması adi hala çevrilmişdi. 1798-ci ilin oktyabrında bu sərt tədbirlərə cavab olaraq Qahirənin əhalisi üsyan etdi, lakin üsyan qəddarlıqla yatırıldı.

Fransa rəhbərliyinin Misir işğalı zamanı həyata keçirdiyi konkret dəyişikliklərə gəlincə, bu dəyişikliklər çox cüzi olmaqla, ölkənin mədəni və iqtisadi yüksəlişinə səbəb olmamışdır. Bundan başqa, misirlilərin özlərinin islahatlarda iştirakı tez-tez və sərt şəkildə məhdudlaşdırmışdır. Belə ki, 1798-ci ilin avqust ayında Misir İnstitutu Misirin elmi baxımdan öyrənilməsi məqsədilə rəsmi şəkildə yaradılmış, lakin sırf elmi funksiyalarla yanaşı, o faktiki olaraq, Fransa hökumətinin məşvərətçi orqanı kimi fəaliyyət göstərmişdir. Belə ki, ona üzvlük misirlilərə qadağan edilmiş, onlara yalnız institutu ziyarət etmək icazə verilmişdir.

Birinci fəslin **ikinci paraqrafında** isə XVIII əsrin sonu – XIX əsrin əvvəllərində misirlilərin mütərəqqi fransız ictimai fikrinə qoşulması prosesi nəzərdən keçirilmişdir. Lakin həmin dövrdə Misirin əhalisi bu ideyaları qəbul edə bilməz və qəbul etmək istəmirdilər, çünki onları təbliğ edənlər müstəmləkəçilər idilər.

**İkinci fəsil** Avropanın mütərəqqi ideyalarının yayılmasında ət-Təhtavinin oynadığı böyük rolu şərh edir. Burada yalnız qısaca qeyd etmək olar ki, o, Misir cəmiyyəti üçün tamamilə qeyri-adi olan

Qərb ideyalarını İslamın yaxın və anlaşılan təlimi vasitəsilə ictihad edib həmvətənlərinə ciddi cəhdlə paralellər gətirməyə çalışmışdır. Belə ki, qədim İslam ehkamlarının köməyi ilə ət-Təhtavi qadınlar və kişilər arasında bərabərliyin tanınmasının zəruriliyini isbatlamışdır. Qərbdə yayılmış insanların qanun qarşısında bərabərliyi fikri, habelə cəmiyyətdə hər bir kəs, o cümlədən yoxsullar, onlarla ədalətli davranışa sahibdirlər və məsələsinə gəlincə, misirli mütəfəkkir bunu isbat etmək üçün Quran ayələrinə müraciət etmişdir. Bu, həmin dövrdə Misir ictimai fikri üçün irəli atılmış böyük bir addım olmuşdur.

Ümumiyyətlə, əsrin əvvəlində misirlilərin əksəriyyəti passiv olaraq qalırdı, onları Qərb gerçəkliyi az maraqlandırırdı; vəziyyət tədricən yalnız Məhəmməd Əli paşanın islahatları sayəsində dəyişməyə başlamışdır. Onun dövründə Misirdə Qərb ədəbiyyatını fəal şəkildə tərcümə etməyə başladılar, beləliklə, ərəb dilində ilk dəfə olaraq tarixi və coğrafi yazıların tərcümələri meydana gəlmişdir: "Roma İmperiyasının yüksəlişi və süqutunun səbəbləri haqqında düşüncələr", "İmperator Yekaterinanın memuarları", "Napoleonun həyatı", "İsveç kralı XII Karlın tarixi" kimi tərcümə edilmiş kitablar cəmiyyətdə sürətlə yayılmağa başladı.

Məhəmməd Əlinin çoxlu sayda sosial-siyasi islahatlarının xüsusiyyətləri birinci fəslin **üçüncü paraqrafında** nəzərdən keçirilir. Məhəmməd Əli Napoleonla mübarizə aparmaq üçün oraya göndərilmiş Osmanlı qoşunlarının alban dəstəsinin üzvü kimi Misirdə məskunlaşmışdı. 1805-ci ildə o, həm məmlükləri, həm də yeli Türkiyə administrasiyasını məğlub edərək faktiki olaraq ölkənin vahid hakimi ola bilişdir. Misirdə vəziyyəti sabitləşdirmək və böhrandan çıxarmaq üçün əvvəlcə inzibati və aqrar islahatlar həyata keçirmiş, Məhəmməd Əli həmçinin ölkənin sənayeləşməsinə başlamış və həmin dövrdə tənəzzül edən ənənəvi sənətkarlığı yeni sənaye sahələrinə çevirmişdir. Tədricən fabriklərin, ordunun və donanmanın tələbatını ödəmək üçün ağır sənaye də yaranmışdı. Günbəgün yeni limanlar, kanallar, bəndlər, yollar tikilirdi. Zavodların tikintisi sayəsində Misir şəhərləri sürətlə böyüyürdü. İsgəndəriyyə şəhərində Məhəmməd Əlinin hakimiyyəti dövründə

sakinlərin sayı 15 min nəfərdən 60 min nəfərə qədər artmışdı, modernləşmə prosesinə qədər kənd olan iri Damanhur adlı yeni şəhər salınmışdır. Qahirədə işçi qüvvəsinin sayı 65 min nəfərə çatmışdır. İslahatların müvəffəqiyyətlə həyata keçirilməsi üçün Misirin yeni hakimi xarici mütəxəssisləri ölkəyə dəvət edirdi. Beləliklə, Fransızların köməyi ilə Misir olduqca tez bir zamanda müasir bir ordu yaratmaq, donanmasını 32 yeni gəmi ilə təchiz etmək və Osmanlı imperiyasının donanmasını kəmiyyət və keyfiyyət baxımından ötüb-keçməyi bacarmış, müntəzəm rekrutun tətbiqi nəticəsində ordunun sayı xeyli artdı: 1830-31-ci illərdə müxtəlif qiymətləndirmələrə görə, 150 mindən 300 min nəfərə qədər adam orduda xidmət etmişdir. Bəzi tədqiqatçılar haqlı olaraq Məhəmməd Əlinin hərbi islahatını onun bütün islahatlarının əsas elementi və əsas məqsədi sayırlar. Misir ordusu böyük gücə çevrilmiş və 1831-33-cü illərdə türk qoşunlarını darmadağın etməyə kömək etmişdir. Bu müddət ərzində Misir Səudiyyə Ərəbistanı, Suriya, Fələstin, Krit adası ərazilərini işğal edə, Sudanda öz mülklərini xeyli genişləndirə bilmişdir.

Ölkədə modernləşmənin mühüm hissəsi təhsil islahatlarının aparılması oluşdur. Bundan əvvəl Misirdə yalnız çox primitiv təlim metodları olan "küttab" (mollaxana) - Quran məktəbləri var idi, burada Quranın məzmununu təfsirsiz kor-koranə əzbərlədirdilər təcrübədən kemiş və yeganə universitet olan əl– Əzhərdə isə, demək olar ki, yalnız İlahiyyat fənni öyrənilirdi, astronomiya, fizika və riyaziyyat isə çox geridə qalmış metodlarla tədris olunurdu. Buna görə də Məhəmməd Əli Avropa nümunəsi üzrə müasir dünyəvi məktəblər və peşə məktəbləri şəbəkəsinin yaradılmasıı qarşısına məqsəd qoymuş və bunu da həyata keçirmişdir. Belə ki, Misirdə Avropa səviyyəsində dərs deməyə qadir müəllimlər yox idi, onları Avropadan dəvət etmək lazım gəlmişdir. Buna baxmayaraq təhsil müəssisələrinin əsas hissəsi ordu və donanma üçün mütəxəssislər hazırlayırdı. Bundan başqa, politexnik, tibb, baytarlıq, kənd təsərrüfatı məktəbləri və tərcüməçilər məktəbi də açılmışdır.

İstedadlı misirlilərin həyatın bütün sahələrində ən yeni nailiyyətləri mənimsəmək üçün Qərbə göndərilməsi Məhəmməd

Əlinin ən mühüm yeniliklərindən biri olmuşdur. Qərbdən qayıdan insanlar özləri ilə yalnız yeni biliklər deyil, yenilənmiş mentalitet də gətirirdilər. Sonradan onlar modernləşən Misirdə yüksək vəzifələr tutmuşdular.

Misir ölkədən çoxlu sayda resursların çıxmasına səbəb olan və daxili islahatlar prosesini ləngidən işğalçı müharibələrlə yanaşı, başqa bir ciddi mənfi amillə - Qərb və Türkiyənin siyasi təzyiqlərilə də üzləşirdi. Qərb ölkələri Misirin kəskin güclənməsini istəmirdilər, buna görə də 1840-cı ildə Məhəmməd Əlinin Osmanlı imperiyasından əldə etdiyi bütün əraziləri geri qaytarmasını, qoşunların sayını on dəfə azaltmasını və sultana xərac verilməsini tələb etmişdilər. Qərb hakimləri Misir üzərinə ağır iqtisadi tələblər qoymuşdular.

Ümumiyyətlə, Məhəmməd Əlinin islahatları ölkəni uzun sürən böhrandan çıxarmaq və çox güclü geriləmənin, xüsusilə ölkəni iqtisadi və hərbi planda gücləndirmək baxımından son dərəcə uğurlu olmuşdur. Qərbi Avropanın inkişaf səviyyəsindən Misir hələ çox uzaq olsa da, Məhəmməd Əlinin hakimiyyəti dövründə ölkələr arasında fərq ciddi şəkildə azalmışdı. Bununla yanaşı, sosial-mədəni sahədə problemlər aradan qaldırılmamışdısa da əhalinin ümumi savadlılıq səviyyəsi, səhiyyənin səviyyəsi hələ də çox aşağı qalmaqda davam etmişdir. Misir təbabəti o zaman Avropa səviyyəsinə olsaydı, əhalinin əziyyət çəkdiyi bəzi xəstəliklərin qarşısını ala bilmək mümkün və asan olardı. Bir çox kəndlilər olduqca yoxsul idilər, həddindən artıq antisanitariya şəraitində yaşayırdılar. Məhəmməd Əli dövründə tibbə və təhsilə kifayət qədər diqqət yetirilməməsi onun külli miqdarda xərclər tələb edən silahlarla təciz olunacaq hərbi ekspansiya yaratması ilə izah oluna bilər.

**"Şeyx Rifaa bin əs-Seyyid Bədəvi Rafi ət-Təhtavi (1801-1873-cü illər) və onun XIX əsrin I yarısında Misirin ictimai-siyasi həyatında rolu"** başlıqlı **İkinci fəsil** Şeyx ət-Təhtavinin həyat və yaradıcılıq yolunun şərhinə və onun Misirin sosial və mədəni inkişafına təsirinə həsr olunmuşdur. O, XIX əsrin ən görkəmli Misir

maarifçilərindən biri kimi bu ölkədə modernləşmə ideyasının yayılmasına nəhəng töhfələr vermişdir.

Ət-Təhtavinin ətraflı tərcümeyi-halı ikinci fəslin **birinci paraqrafında** təhlil edilmişdir. Şeyx 15 oktyabr 1801-ci ildə Təhta şəhərində zəngin zadəgan ailəsində anadan olmuşdur. Lakin 1809-cu il torpaq islahatı nəticəsində ailənin əmlakı əlindən alınmış, tezliklə atası vəfat etmiş və nəticədə ailə yoxsulluğla düçar olmuşdur. Buna baxmayaraq, o, 1817-ci ildə öz qabiliyyəti və qohumlarının köməyi ilə əl-Əzhər universitetinə daxil ola bilmişdi. Orada o, dini elmlər üzrə klassik təhsil almış və müasir Qərb elmini yüksək qiymətləndirən, dövrünün ən görkəmli ilahiyyatçılarından olan Şeyx Həsən əl-Əttarla tanış olmuşdur. Əl-Əttar ət-Təhtaviyə Qərb elmi nailiyyətlərinə rəğbət aşılamışdır.

Ət-Təhtavi 1826-31-ci illərdə Misir tələbələri qrupunun tərkibində Parisdə xüsusi yaradılmış Misir məktəbində təhsil almışdır. O, qrup başçı təyin olunmuş, eyni zamanda fransız dili ilə maraqlanaraq, müasir Avropa elminin öyrənilməsi ilə məşğul olmuş və tədrisdə böyük uğurlar əldə etmişdir. 1831 - ci ildə vətənə qayıdan ət-Təhtavi tibbi əsərlərin tərcüməsinə başlamışdır. 1835-ci ildə Qahirədə "Madrasat ul-Əlsun" ("Dillər məktəbi") yaratmış və onun direktoru olmuşdur. Bu müəssisə Misirdə maariflənmənin yayılmasında çox mühüm rol oynamışdır. Şeyx məktəbə tədricən fransız, ingilis, italyan, türk və ərəb dillərinin tədris olunmasını daxil etmişdir. Tədris proqramına coğrafiya, riyaziyyat, tarix, islam hüququ da daxil edilmişdir. Bu, o vaxtlar hərbi işlə birbaşa əlaqəsi olmayan ümumi təhsil verən yeganə məktəb olmuşdur. Ət-Təhtavi ən yaxşı müəllim heyətini seçərək, tədrisin yüksək keyfiyyətini təmin etmək üçün çox əmək sərf etmişdir. 1841-ci ildə Məhəmməd Əli paşa ət-Təhtavini Qəsr-əl-Ayndakı "Kutubxanə" Avropa kitablarının baş kitabxanasının direktoru təyin edir. Bir il sonra isə ət-Təhtavi redaksiya işinin modernləşdirilməsi məqsədilə "əl-Vəqai əl-Misriyyə" adlı rəsmi büllütenin redaktoru təyin edilir. əsl bilik mərkəzinə və elmin mayakına çevrilən Dil məktəbi 15 il müddətində fəaliyyət göstərmişdir. Ərəb dünyası və Qərbin maarifpərvər insanlarını bir araya gətirən məkan olaraq o, yalnız azadlıq fikirlərinə

deyil, həm də Misir cəmiyyətinin ideologiyasına təsir edən ən parlaq elmi bilik ocaqlarından biri olmuşdur. Lakin 1849-cu ildə bu məktəb Misirin modernləşdirilməsinə düşmən olan Abbas Paşa (1848-1854) tərəfindən bağlanmışdı.

Abbas Paşa 1850-ci ildə ət-Təhtavini Sudana sürgün etmiş və o, dörd ili orada yaşamışdır. Sudanda olarkən o, Fransua Fenelonun "Telemakın macəraları" romanını ərəb dilinə tərcümə etmişdir. Vətənə qayıtdıqdan sonra o, Səid Paşanın (1854-63) sərəncamı ilə təhsil sistemində bir neçə vəzifəyə təyin olunmuşdur. 1856-cı ildə ət-Təhtavi ordu baş qərargah zabitlərinin hazırlandığı hərbi məktəbin direktoru təyin edilmişdir. 1863-cü ildə həmin hərbi məktəbi tərcümə bürosuna çevrimişdir.

1870-ci ildə ət-Təhtavi tibb məktəbinə təhkim olunmuş tərcümə bürosuna və "Mədrəsət-ül-Təchiziyyə əs-Sanaviyyə" orta təmayüllü hazırlıq məktəbinə rəhbərlik etmiş, həmçinin Misir tarixində ilk "Rövzətü-l-Mədaris" elmi-pedaqoji jurnalını təsis etmişdir. Jurnal Misir sivilizasiyasının tarixini əsasən misirlilər arasında yayan millətin maariflənməsində çırağa çevrilmişdir. Ət-Təhtavi jurnalı rubrikalara bölərək, onların hər birinə rəhbərliyi öz dövrünün görkəmli alimlərinə tapşırmışdı. Yaş amili onun intellektual fəaliyyəti göstərməsinə qətiyyən mane olmamış, o, doğru düşüncəsini saxlamış, öz jurnalında ömrünün sonuna qədər yeni nəfəsli məqalələr yazmaqda davam etmiş, qısa sürən xəstəlikdən sonra ömrünün yetmiş ikinci ilində - 27 may 1873-cü ildə vəfat etmişdir.

Ət-Təhtavinin elmi və tərcümə fəaliyyətinin əsas istiqamətləri ikinci fəslin **ikinci paraqrafında** təsvir edilmişdir. Ət-Təhtavinin öz həyatı dövründə redaktə etdiyi, düzəltdiyi və təkmilləşdirdiyi işləri nəzərə almasaq, o, ərəb dilinə 25-dən çox kitabı şəxsən tərcümə etmişdir. Ən mühüm tərcümələrindən biri "Fransız Mülki Məcəlləsi" adlanan fransız qanunları toplusunun tərcüməsi olmuşdur. Ət-Təhtavi o dövrdə bütün inqilabçıların və bütün dünyada azadlıq mübarizlərinin himninə çevrilmiş böyük Fransa inqilabının məşhur mahnısı olan "Marselyeza"nı da ərəb dilinə tərcümə etmişdir. Ət-Təhtavinin daha mühüm tərcümə işlərindən biri onun ətraflı

şərhlərlə təqdim etdiyi XVIII Lüdovik xartiyasının tərcüməsi oldu. O, xartiyanın ehtiva etdiyi ədalət ideyalarının və insanların qanun qarşısında bərabərliyinin vacibliyini vurğulamışdır.

Ət-Təhtavi əsərləri arasında orta əsr ərəb səyyahının yol qeydləri (*rıhlə*) janrında tərtib edilmiş "Parisin qısa vəsfindən təmiz qızılın çıxarılması" təsvirinə xüsusi diqqət yetirmək lazımdır. 1838-ci ildə nəşr olunmuş həmin kitab Məhəmməd Əli paşada belə, bu kitabı yeni məktəblərdə bütün ali məmurlar və tələbələr arasında yaymaq kimi təəssürat yaratmış, hətta kitabın nüsxələri İstanbula da göndərilmişdir. Kitab Bab-alidə yüksək maraq doğurmuşdur.

Ət-Təhtavinin elmə mühüm töhfəsi həm də görkəmli tələbələr pleyadasının hazırlanmasında olmuşdur. Onların iştirakı ilə həm müəlliflər, həm də tərcüməçilər qismində, onların birgə səyləri sayəsində qırx ilədək müddətdə vətənə iki mindən çox kitab ərməğan etmək mümkün olmuşdur.

Ət-Təhtavi Fransanı misal gətirərək elmin dindən ayrılmasının tərəfdarı idi. Bu səbəbdən elmin kilsə rəhbərləri tərəfindən deyil, peşəkar alimlər tərəfindən aparıldığı Fransada elmi biliklər çox uğurla inkişaf etmişdir. Bu baxımdan, ət-Təhtavinin cəmiyyətdə din və təhsilin roluna baxışları maraq doğurur. Ət-Təhtavi təhsilin üç mərhələsini – intellektin və fiziki gücün inkişaf etdirilməsi, vətənpərvərlik və dindarlığın, o cümlədən vətəndaşın siyasi şüurunun tərbiyə edilməsi, humanitar biliklərin ərsəyə gətirilməsi kimi müəyyən etmişdir. Bu zaman ikinci hissə – vətənpərvərlik və din – dini təhsil vasitəsilə əldə edilir ki, bunun da bir hissəsi əxlaqın təhzib edilməsidir. Ət-Təhtavi din barədə geniş baxışlara malik idi, dinin təkcə ritual deyil, həm də marifləndirici funksiyası olduğunu, həm də insanların davranışlarını tənzimlədiyini düşünürdü. Bu baxımdan o, hesab edirdi ki, ictimai tərəqqi təkcə maddi sərvətlərin artmasına əsaslana bilməz və iki aspektdən ibarət olmalıdır: maddi və mənəvi. Eyni zamanda ət-Təhtavi əqidə azadlığını dəstəkləmiş və qeyri-müsəlmanlara qarşı hər hansı ayrıseçkiliyə qarşı çıxmamışdır.

Çox güman ki, ərəb dünyasında ilk dəfə olaraq qadın bərabərliyi mövzusunu ət-Təhtavi qaldırmışdır. O, həmin dövrün

misirliləri üçün inqilabi bir fikir olan xüsusilə qadınların kişilərlə bərabər təhsil almaq hüququ uğrunda çıxış etmişdir. Ət-Təhtavinin vəfatından bir neçə ay əvvəl Qahirədə ilk müsəlman qadın dövlət məktəbi açılmışdır. İmamın təfsirinə görə, ər-arvad hüquq münasibətləri sahəsində hər iki cins, onun təfsirinə görə, bərabər hüquqlara malik olmalıdır, əks halda bir cinsin digəri üzərində üstün olması bərabərlik prinsipinə ziddır. Ət-Təhtavi ər-arvad arasında şəxsi və əmlak xarakteri daşıyan münasibətlərin hüquqla tənzimlənməsinə böyük əhəmiyyət vermişdir. Belə ki, 23 dekabr 1839-cu ildə ət-Təhtavi ilə əmisi qızı Kərimə Fərəc bint Məhəmməd əl-Ənsari arasında bağlanmış nikah müqaviləsi qorunub saxlanmışdır. Bu alimin öz seçdiyi şəxslə evlənməzdən əvvəl tərtib etdiyi bir unikal sənəddə onun həyat yoldaşına olan hörmətinin dərəcəsini, eləcə də Misir cəmiyyətində çoxarvadlılıq ənənəsi çox geniş yayılmışdı və buna  qanuni haqq kimi baxılan dövrdə [24] qadınların emansipasiyasına münasibətini göstərmişdir.

"Parisin qısa xülasəsindən təmiz qızılın çıxarılması" kitabına daxil olmuş ət-Təhtavinin uzun illər Fransada  aldığı təəssüratlar ikinci fəslin **üçüncü paraqrafında** nəzərdən keçirilir. Bu əsərdə ət-Təhtavi fransızların məişəti və əxlaqı, fransız təbabətinin, elm və incəsənətinin nailiyyətləri ilə maraqlanır, doğma ərəb dilinin fransız dili ilə müqayisəsini aparır, Fransa əhalisinin dini vəziyyətini qiymətləndirməyə çalışır, ölkənin siyasi həyatında baş verən hadisələr haqqında düşünür, çox maraqlı və mühüm qənaətlərə gəlir. Demək olar ki, hər səhifədə ərəb şairlərinin şeirlərindən parçalar verilir ki, bu da ət-Təhtavinin poeziyaya olan rəğbətindən xəbər verir. O, özü də poetik istedadını nümayiş etdirərək, bu ölkədən aldığı təəssürat nəticəsində bir neçə şeir də yazmışdır.

Öz kitabında ət-Təhtavi Fransanın nail olduğu elm, incəsənət və texnologiyaları müsəlman dünyası əxz etməsini daim vurğuladığı

---

[24] Эфенди, П.А. «The emancipation of women in the works of the XIX century Egyptian educator Rafi Rifaa at-Tahtawi». International Scientific Symposium «A flag once raised will never fall again» dedicated to the 140th anniversary of the founder of the Azerbaijan Democratic Republic Mammad Amin Rasulzadeh. The 27th of Janvary 2024. Kars / Turkey. p.473.

halda fransız geyim tərzini və adət-ənənələrinin müsəlmanlar tərəfindən təqlid edilməsini məqsədəuyğun saymamışdır. O, öz cəmiyyətinin dini, mədəni və dil əsaslarının qorunub saxlanılmasının tərəfdarı idi və hesab edirdi ki, İslam dünyası ölkələrinə özünü təsdiq etməyə və Qərbin inkişaf etmiş dövlətlərinin inkişaf, zənginlik və təsir səviyyəsinə çatmağa kömək etmək üçün yalnız xarici, texniki nailiyyətlər mənimsənilməlidir, yalnız bu da İslamın dünyada tutduğu mövqelərinin möhkəmlənməsinə xidmət etməsi ilə mümkündür. Ümumiyyətlə, bir sıra tənqidlərə baxmayaraq, ət-Təhtavinin bu ölkəyə dərin marağı, onun bütün ziddiyyətlərini başa düşmək istəyi və bununla yanaşı, onun aşkar uğurlarını öyrənmək arzusu hiss olunurki, o, Parisdə təhsil alarkən bunlara diqqət yetirmiş və dərindən araşdırmışdır ki, əsil vətənpərvər kimi öz ölkəsinə bu sahədə fayda verə bilsin deyə bütün bunlara diqqət yetirmişdir[25].

Üçüncü fəsildə - **"Misir cəmiyyətinin qeyd olunan dövrdə siyasi modernləşməsi"** adlı hissədə misirlilərin Qərb baxışlarını və dəyərlərini mənimsəməsi prosesi araşdırılır, həmçinin Misirin bəzi digər ölkələrlə siyasi və sosial-iqtisadi modernləşdirilməsinin müqayisəsi aparılır.

Üçüncü fəslin **birinci paraqrafında** İslam dəyərlərinin Qərb ideyaları ilə qarşılıqlı əlaqəsinin təhlili verilmişdir.

Misirlilərin xaricə səfərlərinin motivasiyasında və təşkilində deyil, həmçinin Misir cəmiyyətinin ümumi modernləşdirilməsində fransız ziyalısı E. F. Jomar çox böyük rol oynamış və öz həyatının xeyli hissəsini müasiri olduğu Misirin tədqiqinə həsr etmişdir. Fransada Məhəmməd Əlinin siyasəti bir çox səbəblərdən tənqid olunsa da, Jomar öz əsərlərində Misir hakimini müdafiə etmişdir. O, hesab edirdi ki, onun idarəçiliyi təkcə mənfi cəhətlərə yox, həm də bir çox müsbət cəhətlərə malik idi ki, bunlardan biri də ölkə iqtisadiyyatı və cəmiyyətinin modernləşməsi üçün bir növ şəraitin yaradılması olmuşdur.

[25] Эфенди П.А., Путешествие мусульманского просветителя XIX в. шейха Рифа'а бин ас-Саййида Бадави Рафи ат-Тахтави за «чистейшим золотом» в Париж. BDU Tarix və onun problemləri. Bakı. 2021. № 4, s.35.

Məhəmməd Əlinin Misirin modernləşdirilməsi zamanı əl-Əzhər universitetinə münasibətdə mövqeyinə gəlincə, o, onu elə bir alətə çevirməyə çalışırdı ki, onun köməyi ilə artıq birinci mərhələdə islahatların legitimliyinə nail olmaq və ikinci mərhələdə həyata keçirdiyi sosial-iqtisadi dəyişikliklərə haqq qazandırmaq mümkün olsun. Lakin əl-Təhtavi əl-Əzhərdə sadəcə elmi-təhsil müəssisəsi kimi deyil, daha böyük missiyanın icrasını kimi görürdü: əl-Əzhər onun üçün ərəb-İslam kimliyinin rəmzi, həmçinin, milli tarixi yaddaşın daşıyıcısı idi. Mühafizəkar ilahiyyatçı alimlər ət-Təhtavinin əl-Əzhər tədris proqramını yeniləmək və onu Qərbi Avropa ölkələrinin yüksək səviyyəli inkişafa nail olmasına kömək etmiş müasir elmlər üçün açıq elan etmək çağırışını rədd edirdilər. Bunu onunla izah etmək olar ki, Misir modernləşmə layihəsi yuxarıdan islahatlar yolu ilə həyata keçirmişdir. Misir cəmiyyətinin özünün yeni ideya və dəyərlərə can atması ilə əlamətdar olmamış və buna görə də ənənəvi təhsil elitası arasında kifayət qədər tərəfdar əldə edə bilməmişdir[26].

Ət-Təhtavinin Qərb ideyalarını İslam dəyərləri ilə hansı prinsiplər əsasında birləşdirdiyini də nəzərdən keçirmək maraqlıdır. O, mömin bir müsəlman olaraq həyatı boyu ərəb-islam mədəniyyətinə sadiq qalmış və buna görə də hər zaman qərbdən nə götürmək lazım olduğunu və kimiliyinin itirilməsinə yol verməmək üçün İslam dininin prinsipləri ilə necə məşğul olmaq sualını qoyurdu. Nəticədə, ət-Təhtavi Misirin tərəqqisinə kömək etmək üçün Qərbdən bilik və elm almağa qərar vermiş, lakin onun fikrincə, əldə edilmiş biliklər ölkənin dini və mədəni irsinə zidd olmamalıdır.

Üçüncü fəslin **ikinci paraqrafında** Misir cəmiyyətindəki modernləşmə dəyişiklikləri Qərb mədəniyyətinin təsiri altında bəzi digər ölkələrlə müqayisədə nəzərdən keçirilmişdir. Ümumiyyətlə, Məhəmməd Əlinin dövründə Misir cəmiyyətinin modernləşdirilməsinə, şübhəsiz, daha çox təhsil islahatı təsir

[26] Эфенди П.А., Соотношение модернизации и традиционной культуры во взглядах Рифаа Рафи ат-Тахтави. AMEA «Xəbərlər» (Sosial elmlər seriyası) elmi nəzəri jurnal. Bakı. 2022. № 1, сс.91-92.

göstərmişdir. Bu, əcnəbi mütəxəssislərin dəvət edilməsini və tələbələrin Qərbi Avropaya göndərilməsini nəzərdə tuturdu ki, nəticədə əhalinin təhsilli hissəsinin dünyagörüşünün nəzərəçarpan dərəcədə genişlənməsi, eləcə də ölkəyə cəmiyyət və dövlət həyatının ən müxtəlif sahələrindən çoxlu sayda yeni, naməlum ideya, peşə və informasiyaların axını demək idi. Ölkədə bir çox xarici mütəxəssislər – müxtəlif istiqamətli məktəb və məktəb müəllimləri, hərbi instruktorlar, həkimlər, baytarlar fəaliyyət göstərirdi. Yalnız 1826-1844-cü illərdə xaricə göndərilən tələbələrin sayı 291 nəfər, ümumilikdə 1809-1863-cü illərdə isə, onların sayı beş yüzdən çox olmuşdr. Onlar ölkənin inkişafı ilə məşğul olan milli kadrların əsasını təşkil etmişdir. Lakin islahatların əks tərəfi də var idi: onlar çox tələsik, bir növ formanın olduğu kimi əksindən ibarət idi ki, çox zaman heç də həmişə Avropa elmi ənənəsinin mahiyyətini (bu, tez-tez məzunların təhsil səviyyəsinin aşağı düşməsinə gətirib çıxarırdı) əks etdirmirdi. Bundan başqa, dəyişikliklər əsasən ölkənin hərbi potensialının gücləndirilməsinə yönəldilmişdi. 1840-cı ildən, Qərb dövlətlərinin təzyiqi nəticəsində Paşa ordunun sayını kəskin şəkildə azaltdığı bir vaxtda təhsil xərcləri də 50% azalmış, onun bir çox sahələri tədricən tənəzzül etmişdir. Bununla yanaşı məhdud saylı təhsilli insanların digər misirlilərə təsiri çox az idi: Misir sakinlərinin əksəriyyəti müasir bilikləri qəbul etməyə hazır deyildilər və buna heç cəhd də etmirdilər. Buna baxmayaraq, Məhəmməd Əlinin islahatları, şübhəsiz ki, Misir cəmiyyətinin tədricən oyanmasına və milli dirçəlişə səbəb olmuşdur. Avropada təhsil almış misirlilər Məhəmməd Əlinin ölümündən sonra da ölkənin inkişafına kömək etmişlər.

XIX əsrin sonlarında Yaponiya da modernləşmə yolu ilə getmişdir. Bu ölkədə islahatçılar "Yapon ruhu – Avropa biliyi" şüarından çıxış edərək, çoxəsrlik yapon ənənələrinə riayət olunmasına davam etmək zərurətini göstərərək, yalnız Qərbin zahiri, texniki nailiyyətlərini əxz etməyi, onları yapon spesifikasına uyğunlaşdırmağı vacib saymışlar. Ölkə öz iqtisadiyyatında və cəmiyyətində son dərəcə uğurla islahatlar aparmış və qısa bir zamanda dünyanın ən zəngin ölkələrindən birinə çevrilmişdir.

XIX əsrin 60-cı illərində başlayan Meydzi dövrü Yapon İmperatoru Mutsuhitonun islahatlarının, Məhəmməd Əli dövründəki Misir modernləşməsi təcrübəsinin kifayət qədər maraqlı müqayisəsi mövcuddur. Bu proseslərin hər ikisi ölkələrin sosial-iqtisadi mövqeyini gücləndirmək və Qərb ekspansiyasına müqavimət göstərməklə yanaşı, Qərbin ən yaxşı inkişaf nailiyyətlərini mənimsəmək məqsədi daşımışdır. Lakin Yaponiyanın modernləşdirilməsi Misirdə və Yaponiyada müasirləşmə prosesləri arasında əsas fərq ondan ibarət idi ki, Misirdə insan hüquqları o vaxt vətəndaş cəmiyyətinin sürətlə inkişaf etdiyi, çoxlu müstəqil jurnalistlər və yazıçılar meydana gəldiyi, kifayət qədər müstəqil parlament formalaşdığı Yaponiyadan xeyli aşağı səviyyədə qalmışdır. Bundan başqa, Yaponiyada əhalinin daha çox sıxlığına görə Misirlə müqayisədə daha çox modernləşmə prosesini aparmaq, yeni ideyaların yayılmasına və insanların maariflənməsini asanlaşdırırdı. Yaponiyanın iri şəhərləri bir-birinə yaxın yerləşirdi, ölkənin sıx məskunlaşmış rayonları isə nəqliyyat yolları ilə bir-birinə bağlı idi. Misirdə əhalinin geniş əraziyə səpələnməsi üzündən islahatları bütün ölkəyə yaymaq çətin idi və buna görə də modernləşmənin təsiri əsasən iri şəhərlərdə hiss edilirdi, kənd əhalisi isə, demək olar ki, modernləşmədən kənarda qalmışdı. Uğurlu modernləşmənin çox vacib amillərindən biri yaponların 50% - dən çoxunun savadlı olması idi ki, bu da onların Qərb sivilizasiyasının baza prinsiplərini mənimsəməsini asanlaşdırırdı.[27]

Yaponiyada müasir biliklərin yayılmasında XIX əsrin milli mütəfəkkiri və maarifçisi Fukudzava Yukiti çox böyük rol oynamışdır. Fukudzavanın ümumi təhsilin, hamının qanun qarşısında bərabərliyinin, Qərb elmi-texniki nailiyyətlərinin tətbiq edilməsinin

---

[27] Эфенди, П.А., Идеи либеральной модернизации в просветительской деятельности Р.Р. ат-Тахтави в Египте и Ю.Фукудзавы в Японии. Республиканский информационный центр по изучению исторических материалов при Институте востоковедения им. Р. Б. Сулейменова Комитета науки Министерства науки и высшего образования Республики Казахстан. Алматы. 2023. № 1, с.61.

zəruriliyi ilə bağlı ideyaları əsasən Misir və Yaponiya cəmiyyətlərinin modernləşdirilməsi ilə bağlı vəzifələrin oxşarlığına görə ət-Təhtavi ideyaları ilə üst-üstə düşürdü[28].

Sonda əsas qənaətlərə gəlinir və işin **nəticələri** sistemləşdirilir. Aparılmış tədqiqat nəticəsində müəyyən edilmişdir ki, XIX əsr Misir üçün mühüm, intensiv bir dövr olmuş, Fransanın xarici müstəmləkə idarəsi altında başlanan və Məhəmməd Əlinin idarəçilik istedadı sayəsində davam edən modernləşmə kifayət qədər ardıcıl xarakter daşımamışdır. Fransız istilası bir tərəfdən fransızların yerli cəmiyyət üçün yad adətləri və tətbiq etdikləri repressiyalara görə misirlilərin müqavimətilə qarşılaşmışdılar. Digər tərəfdən, savadlı misirlilər Misirin Fransadan ciddi geriləməsinə diqqət yetirmiş və onun elmi və texniki nailiyyətlərinin əldə edilməsinin zəruriliyini dərk etmişlər. Məhəmməd Əlinin islahatları çox müxtəlif planlı, çoxtərəfli olub ölkə həyatının bütün əsas sahələrini əhatə etmiş və ölkənin ciddi sosial-iqtisadi modernləşdirilməsinə şərait yaratmışdır. Buna baxmayaraq onun idarəçiliyindəki çatışmazlıqlar, ilk növbədə, tibb və səhiyyəyə çox zəif diqqət, həmçinin misirlilərin həyat şəraitinin yaxşılaşmasına xüsusi əhəmiyyət verilməməsi qeyd edilməlidir. İslahatlar tələsik aparılırdı, onların əsas məqsədi Misirin hərbi potensialını gücləndirməkdən ibarət olmuşdur.Bu səbəbdən vəsaitlər işğalçı müharibələrə və ordunun yenidən qurulmasına sərf edilmişdir ki, tam əksinə bütün bunlar misirlilərin sosial rifahının inkişafına sərf edilə bilərdi. Bununla belə Məhəmməd Əlinin çox geniş sosial, siyasi, hərbi və xüsusilə Misir maarifinin modernləşdirilməsinə göstərdiyi xidmətləri inkar etmək olmaz ki, bu proses ölkədə fəal cəmiyyətin oyanmasına ata da olsa gətirib çıxarmışdır.

---

28

أفندي برفين آغاسافي , أفكار التحديث و "التغريب" الليبرالية في المجهودات التنويرية لرفاعة رافع الطهطاوي في مصر و يوكيتشي فوكوزاوا في اليابان
Batna Dövlət Universitetinin Humanitar və Sosial Elmlər Bölməsinin elmi jurnalı.
Elmi jurnalın adı: مجلة المقدمة للدراسات الإنسانية والإجتماعية
Əlcəzair Xalq Demokratik Respublikası. Əlcəzair: 06, İyun 2022 № 01, s.689.

Qismən də olsa həyatının bir hissəsi Məhəmməd Əli paşanın hakimiyyəti dövrünə düşən görkəmli Misir maarifçisi ət-Təhtavinin fəaliyyəti çox geniş və əhatəli olmuşdur. Ət-Təhtavi Misirə qayıtdıqdan sonra fəal maarifləndirmə və tərcüməçilik fəaliyyəti ilə məşğul olmuşdur. O, Misirin modernləşməsi prosesinə çox böyük töhfələr vermiş və buna görə də Misir ziyalılarının atası adlanmışdır. Yəqin ki, onun ən uğurlu layihəsi həyatın ən müxtəlif sahələrindən bir çox Qərb əsərlərinin tərcüməsini həyata keçirən məşhur Dillər məktəbini yaratmasıdır. Ət-Təhtavi Misir cəmiyyətinin inkişafına, gənc misirlilərin yetişdirilməsi problemlərinə, ölkədə monarxın roluna dair fikirlərini ifadə edən bir sıra kitablar nəşr etdirmişdir. Ət-Təhtavinin modernləşmə prosesində Misir cəmiyyəti qarşısında qoyduğu mütərəqqi vəzifələrin çoxu (xüsusilə qadınların ümumi savadlılığına və bərabərliyinə nail olmaq) yalnız bir əsrdən sonra öz həllini tapmışdır.

**Dissertasiyanın məzmunu aşağıdakı nəşrlərdə öz əksini tapmışdır:**

1. Путешествие мусульманского просветителя XIX в. ат-Тахтави за «чистейшим золотом» в Париж// Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Sovet İttifaqı qəhrəmanı Ziya Musa oğlu Bünyadovun xatirəsinə həsr olunmuş “Müasir şərqşünaslığın aktual problemləri” mövzusunda Beynəlxalq Elmi Konfrans. Bakı: -16-17oktyabr-2017- c.244
2. Обучение египетских студентов во Франции в 1820-30-е гг.: ход и результаты // -Bakı: AMEA «Xəbərlər».Sosial elmlər seriyası- 2021. № 2,- s.35-40.
3. Путешествие мусульманского просветителя XIX в. шейха Рифа’а бин ас-Саййида Бадави Рафи ат-Тахтави за «чистейшим золотом» в Париж// -Bakı: Tarix və onun problemlər- 2021. № 4,- s.32-36.
4. Социально-экономическая модернизация Египта в первой половине XIX в// -Bakı: AMEA «Şərq araşdırmaları» elmi nəzəri jurnal,- 2021. № 4,- c.117-123.

5. Роль египетского просветителя Рифа’а Рафи ат-Тахтави в борьбе за равноправие египетских женщин//-Bakı: Tarix və onun problemləri, Bakı Avrasiya Universiteti “Sivilizasiya” jurnalı- 2022. № 1,- ss.68-73
6. Соотношение модернизации и традиционной культуры во взглядах Ри’фаа Рафи ат-Тахтави// -Bakı: AMEA İctimai elmlər- 2022. № 1,- сс.90-93
7. أفندي برفين آغاسافي ,
أفكار التحديث و "التغريب" الليبرالية في المجهودات التنويرية لرفاعة رافع الطهطاوي في مصر و يوكيتشي فوكوزاوا في اليابان
Научный журнал кафедры Гуманитарных и Социальных Наук Государственного Университета Батна. Название научного журнала: مجلة المقدمة للدراسات الإنسانية والإجتماعية
Алжирская Народная Демократическая Республика. Алжир. Volume: 06, June 2022 № 01, с.680-691.
8. «Идеи либеральной модернизации в просветительской деятельности Р.Р. ат-Тахтави в Египте и Ю.Фукудзавы в Японии»// -Алматы: Республиканский информационный центр по изучению исторических материалов при Институте востоковедения им. Р. Б. Сулейменова Комитета науки Министерства науки и высшего образования Республики Казахстан-2023. № 1,- с. 58-63.
9. “The emancipation of woman in the XIX century Egyptian educator Rifaa Rafi al-Takhtawi”// International Scientific Symposium «A flag once raised will never fall again» dedicated to the 140th anniversary of the founder of the Azerbaijan Democratic Republic Mammad Amin Rasulzadeh. The 27th of Janvary 2024. Kars / Turkey. pp.471-479.
10. Традиционные взгляды Рафи Рифаа ат-Тахтави на роль женщин в обществе в Египте в первой половине XIX века// Akademik Ziya Musa oğlu Bünyadovun 100 illik yubileyinə həsr olunmuş “Qədim və Müasir Şərq: mənbələr, tədqiqatlar, perspektivlər” mövzusunda Beynəlxalq Elmi Konfrans.Bakı:-20-21 dekabr-2023- s.130

11. Эмансипация женщин в эпоху арабского возрождения: Рафи Рифаа ат-Тахтави как идейный вдохновитель// Görkəmli alim-oftalmoloq akademik Zərifə xanım Əliyevanın 100 illiyinə ithafən - "Dəyişən dünyada qadın: Şərq və Qərb baxışı" mövzusunda Beynəlxalq Elmi Konfrans. Bakı:-6-7 mart-2023-s.154

Dissertasiya işinin müdafiəsi 16 may 2024-cü il tarixində saat 13⁰⁰ Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurasında keçiriləcəkdir.

Ünvan: AZ-1143, Bakı, H.Cavid prospekti, 115

Dissertasiya işi ilə Azərbaycan Respublikası Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Arxiv və elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferatın elektron versiyası Azərbaycan Respublikası Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun rəsmi saytında yerləşdirilmişdir.

Avtoreferat müvafiq ünvanlara 15 aprel 2024-cü il tarixində göndərilmişdir.

Çapa verilmişdir:
Kağız formatı:
Həcmi:
Tiraj: